Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

# Press-reliz

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7-8 avqust 2007-ci ildə Qazaxıstana səfər etmişdir.

Azərbaycan və Qazaxıstan Prezidentləri tərəfindən imzalanmış Birgə Bəyannamədə Azərbaycan-Qazaxıstan münasibətlərinin prioritet sahələrindən biri kimi enerji sahəsi müəyyən olunmuşdur.

Birgə Bəyannamədə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bir hissəsi olan Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəmərinin strateji əhəmiyyəti vurğulanmış, onun qlobal enerji təhlükəsizliyinə töhfə verəcəyinə, region ölkələrinin davamlı iqtisadi inkişafına xidmət edəcəyinə əminlik qeyd olunmuşdur.

Tərəflər Xəzər dənizi vasitəsilə birgə enerji layihələrinin həyata keçirilməsində qarşılıqlı fəaliyyətin zəruriliyini qeyd etmişlər.

Tacikistan Respublikasının Prezidenti Emomali Rəhmonovun Azərbaycan Respublikasına 13-14 avqust 2007-ci ildə rəsmi səfəri zamanı Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında imzalanmış Birgə Bəyannamə də enerji sahəsində əməkdaşlığı əhatə edir.

Tərəflər Xəzər dənizi vasitəsilə birgə enerji layihələrinin həyata keçirilməsində daha sıx əməkdaşlığın vacibliyinə əminlik ifadə etmişlər.

30 avqust 2007-ci il